Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili
və Kommunikasiya Mərkəzi

# HALAL
## İQTİSADİYYAT

Prof. V. Ə. Qasımlının redaktorluğu ilə

Aqil Şirinov, Vüsal Əmirxanov,
Azər Orucov, Nigar Ələsgərova,
Əhməd Niyazov, Şəfa Quliyeva,
Vüsalə Cəfərova, Eldəniz Əmirov,
Fərid Vəlizadə, İlhamə Abdullayeva

Bakı - 2024

Kitab Azərbaycan İlahiyyat İnstitutu Elmi Şurasının 28 dekabr 2024-cü il tarixli (3-32-1/3-4-1/2025) iclasının qərarı ilə çapa tövsiyə edilmişdir

## REDAKSİYA HEYƏTİ:

**VÜSAL QASIMLI**
Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktoru, iqtisad elmləri doktoru, professor

**QOŞQAR TƏHMƏZLİ**
Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri, Tibb elmləri üzrə fəlsəfə doktoru, dosent

**FUAD NAĞIYEV**
Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri

**MƏMMƏD MUSAYEV**
Azərbaycan Sahibkarlar Konfederasiyası Prezidenti, iqtisad elmləri doktoru

**AQİL ŞİRİNOV**
Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent

## RƏYÇİLƏR

**Zahid Məmmədov**
UNEC İslam Maliyyə Mərkəzinin rəhbəri,
iqtisad elmləri doktoru, professor

**Mübariz Camalov**
Azərbaycan İlahiyyat İnstitutu,
Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent

**Ruslan Atakişiyev**
İqtisadi Resursların Öyrənilməsi ictimai birliyinin sədri, iqtisad üzrə fəlsəfə doktoru

**Anar Yusifzadə**
Dövlət-Sahibkar Tərəfdaşlığının (Public Private Partnership) İnkişafı Mərkəzinin rəhbəri

Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi

Vüsal Qasımlı, Vüsal Əmirxanov, Azər Orucov, Nigar Ələsgərova, Əhməd Niyazov, Şəfa Quliyeva, Vüsalə Cəfərova, Eldəniz Əmirov, Fərid Vəlizadə, İlhamə Abdullayeva

“**Halal iqtisadiyyat**”,
Dərs vəsaiti, Bakı, “Azprint” mətbəəsi, 2024, .... səh

Layihənin koordinatoru:

**Aqil Əsədov,**
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri, iqtisad elmləri doktoru

“Halal iqtisadiyyat” kitabı qlobal və milli iqtisadiyyatda proqnozlaşdırılan inkişaf perspektivlərindən irəli gələn zərurət kimi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təşəbbüsü ilə, əlaqədar qurumların əməkdaşlığı əsasında ərsəyə gəlib. Kitabda halal iqtisadiyyata dair şəriət tələbləri, halal idarəetmənin etik məsələləri, ticarət əqdlərində halallıq prinsipləri, halal turizm, qlobal halal ticarət dinamikası və bununla bağlı çağırışlar, Azərbaycanda halal iqtisadiyyatın sahibkarlığın inkişafına təsir perspektivləri və s. kimi məsələlər ətraflı təhlil edilir, bu istiqamətdə qarşıda dayanan vəzifələr göstərilir. Ümid edirik ki, kitab əlaqədar mütəxəssislər, uyğun ixtisasda təhsil alanlar və araşdırmaçılar üçün dəyərli və zəngin bir mənbə olaraq, ölkəmizdə halal iqtisadiyyatın inkişafına öz töhfəsini verəcəkdir.

## MÜNDƏRİCAT

**Redaktordan** (prof. Dr. V.Qasımlı)
**Ön söz** (Fuad Nağıyev)
**Giriş** (İlah.ü.f.d., dosent Aqil Şirinov)

**I Fəsil. HALAL İQTİSADİYYAT və İSLAM TİCARƏT ƏXLAQI (Vüsal Əmirxanov – AQTA, Azər Orucov- ATA)**

1.1. Halal İqtisadiyyatın Seqmentasiyası
1.1. Halal qida və içki sənayesi
1.2 Halal, Təyyib, Haram və Şübhəli Qidalar
1.3. Halal qidanın əlçatanlığı
1.4. Halal ət və ət məhsulları, halal kəsim məntəqələri
1.5. Halal süd və süd məhsulları
1.6. Balıq və dəniz məhsulları
1.7. Digər heyvan və bitki mənşəli qida məhsulları, qida əlavələri
1.8. Halal Qida Sertifikatlaşdırma Prosedurları
1.9. Halal Turizm
1.9.1.Halal turizmin təşkilinin nəzəri aspektləri
1.9.2. Müsəlman turistlərin inanca əsaslanan ehtiyaclara görə seqmentləşməsi
1.9.3. Halal turizmin iqtisadi potensialı
1.9.4. Qlobal Müsəlman Səyahət İndeksi
1.9.5. Azərbaycanda halal turizmin inkişaf perspektivləri

**II Fəsil: DİNİ ASPEKTLƏRDƏN TİCARƏT ƏQDLƏRİNDƏ HALALLIQ PRİNSİPLƏRİ (İlah.ü.f.d., dosent Əhməd Niyazov, AİI)**

2.1. İslamda əqdlər və əqdlərdə halallıq prinsipi
2.2. Fasid və batil (hökmsüz) əqdlər: əqdlərdə şərt qoşmaq
2.3. Faiz və sələmçilik
2.3.1. İslam dinin islahatçılıq konsepsiyası kontekstində faiz

2.3.2. Faizsiz iqtisadiyyata baxış
2.3.3. İslamda faizin (ribanın) tərifi və faiz qadağasının qaynaqları
2.3.4. Faizin növləri
2.4. Ticarətdə istehlakçı hüquqları: Məhəllin eyibi və aldanma (qəbin)
2.4.1. Eyib muxəyyərliyi
2.4.2. Aldanma müxəyyərliyi (Qəbin)

**III Fəsil. Halal idarəetmənin etik aspektləri**
**(prof. Şəfa Quliyeva, UNEC)**
3.1. Din və elmin sinergetikası kimi İslam - bəşəriyyətin mövcudluq zərurəti kimi
3.2. Halal iqtisadiyyatın etik aspektləri
3.3.Etika - sosial sistemlərin idarə edilməsi kontekstində
3.4. Əxlaqi şüurun səviyyələri və komponentləri
3.5. Etik rəhbərliyin fəaliyyət istiqamətləri

**IV fəsil: HALAL İQTİSADİYYAT VƏ İSLAM MALİYYƏSİ**
**(Nigar Ələsgərova, İETİ)**
4.1. “Halal”ın mahiyyəti, tərifi və konsepsiyası
4.2. İslam maliyyəsinin mahiyyəti və inkişaf dinamikası
4.3. Halal İnvestisiyalar: mövcud vəziyyət və çağırışlar

**V Fəsil: QLOBAL HALAL TİCARƏT DİNAMİKASI VƏ MÜASİR ÇAĞIRIŞLAR**
**(Vüsalə Cəfərova, İİTKM)**
5.1. Qlobal halal ticarət trendləri
5.2. Əsas ixrac edən və idxal edən ölkələr
5.3. Halal ticarət imkanları və müasir çağırışlar

5.4. Halal ticarətə dair normativ çərçivələr və beynəlxalq standartlar

**VI Fəsil. AZƏRBAYCANDA HALAL İQTİSADİYYATIN SAHİBKARLIĞIN İNKİŞAFINA TƏSİR PERSPEKTİVLƏRİ**

**(Eldəniz Əmirov, KOBİA;**
**Fərid Vəlizadə, ASK**
**İlhamə Abdullayeva ASK)**

6.1. Azərbaycanın milli iqtisadi inkişaf modelində Halal iqtisadiyyatın mikro, kiçik və orta sahibkarlığın inkişafına təsir imkanları: Fürsətlər və Risklər
6.1.1. İqtisadi inkişaf modellərində sahibkarlığın yeri və rolu
6.1.2. Azərbaycanın iqtisadi inkişaf modelində sahibkarlığa dəstək istiqamətləri
6.1.3. Azərbaycanın iqtisadi inkişaf modelinə sahibkarlığın mümkün təsirləri
6.1.4. Halal iqtisadiyyat və Azərbaycan KOB-ları: Fürsərlər və Risklər
6.2. Azərbaycanda İslam bankçılığının sahibkarlığın inkişafına mümkün təsir perspektivləri
6.2.1. Qlobal iqtisadiyata İslam bankçılığının töhfələri
6.2.2. Azərbaycan iqtisadiyyatı və İslam bankçılığı
6.3. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Halal iqtisadiyyatın inkişafında rolu
6.3.1. Halal iqtisadiyyat və KOBİA
6.3.2. Azərbaycan Halal Biznes Forumu
6.3.2.1.“Halal İslami Hotel” layihəsi
6.3.2.2. “Halal Expo 2023”
6.4. Halal iqtisadiyyatının naviqasiyası

6.4.1. Azərbaycandan olan sahibkarlar üçün gələcək perspektivlər
6.4.2. Azərbaycanlı sahibkarların halal iqtisadiyyatdan gözləntiləri
6.4.3. Azərbaycan Sahibkarlar Konfederasiyasının halal iqtisadiyyatın təşviqi ilə bağlı gördüyü işlər və gələcək perspektivlər

İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR

## Elmi redaktordan

Halal anlayışı öz mahiyyətində daşıdığı ədalət prinsipinə əsasən bəşəri dəyərlərlə, xüsusən də BMT-nin elan etdiyi 17 Dayanıqlı İnkişaf Məqsədi kimi universal gündəliklə uzlaşır. Mənə görə halal anlayışı Keyt Rauozun "ponçik iqtisadiyyatı" konsepsiyasında izah etdiyi iki konsentrik halqa - sosial təməl və ekoloji tavanın arasında həm ekoloji cəhətdən təhlükəsiz, həm də sosial cəhətdən ədalətli olan məkanda yerləşir.

"Halal" və "yaşıl" paradiqmaları o qədər yaxındır ki, "halal yaşıldır" konsepsiyası həm nəzəriyyədə, həm də praktikada özünü təsdiq etmişdir. Belə ki, halal qaydalar ətraf mühitin qorunmasına, sosial ədalətə və davamlı inkişafa töhfə verə bilər. Məsuliyyətli istehlak və biznes etikasını tərcih edən halal biznes ESG təməl prinsiplərini bölüşür və ətraf mühit, sosial və korporativ idarəetmə üçbucağı ilə ahəngdarlıq təşkil edir.

Yaşıl prinsiplərə uyğun olaraq, halal fəlsəfəsi resursların təkrar istifadə olunduğu və təkrar emal edildiyi dairəvi iqtisadiyyatı təşviq edir. "Halal yaşıldır" dedikdə halal təcrübələrin ekoloji cəhətdən davamlı prinsiplərlə kəsişməsi nəzərdə tutulur. "İcazə verilən" mənasını verən İslam anlayışı olan halal getdikcə əhatə dairəsini genişləndirir və dövrün çağırışına cavab verməyə çalışır.

Halal qida istehsalı minimal tullantıları, heyvanlarla humanist rəftarı və qida zəncirinin təhlükəsizliyini nəzərdə tutur. Məsələn, halal kəsim heyvanın ömrü boyu sağlam olmasını və düzgün müalicə olunmasını tələb edir. Heyvanlara bu diqqət daha geniş mənada ekoloji etikanı əks etdirir və resursların sui-istifadə edilməməsini təmin edir. Eləcə də halal qida istehsalında səmərəlilik və artıq tullantıların qarşısının alınması əsasdır. Təsərrüfatdan süfrəyə doğru resursların səmərəli istifadəsinə vurğu

qida tullantılarının azaldılması və heyvanın hər bir hissəsindən istifadənin təşviqi kimi ekoloji yanaşmanı ehtiva edir.

Bir çox halal məhsullar, xüsusilə də kosmetika və şəxsi qulluq məhsulları getdikcə daha çox təbii maddələrdən alınır. Bu, həm istehlakçılara, həm də ətraf mühitə fayda gətirərək zərərli kimyəvi maddələrdən asılılığı minimuma endirir. Təmizlik tələb edən halal sertifikatı təbii olaraq ekosistemlərə daha az zərərli olan inqrediyentlərin istifadəni təşviq edir.

Hazırda halal anlayışı həm də turizm, logistika, marketinq, çap, elektron media, qablaşdırma, brendinq, moda, əczaçılıq və maliyyəni əhatə etməklə qida və kosmetika sənayesindən də kənara çıxır. Halal iqtisadiyyatın miqyası trilyonlarla dollar ölçülür. Təkcə halal qida sənayesinin qlobal miqyasda həcmi illik iki trilyonu keçir.

Halal məhsul və xidmətlər üçün sertifikasiya prosesləri mövcuddur və bu, məhsulların İslam standartlarına uyğun olub-olmamasını təsdiqləyir. Halal sertifikatı olan məhsullar və xidmətlər müsəlman istehlakçılar üçün etibarlı seçim kimi qəbul edilir. Müxtəlif ölkələrdə halal sertifikatı verən müvafiq qurumlar fəaliyyət göstərir və bu qurumlar beynəlxalq səviyyədə standartlaşdırılmış qaydalara uyğun işləyirlər.

Halal standartları, həm dini prinsiplərə uyğunluğu, həm də keyfiyyətin və sağlamlığın qorunmasını təmin edir. Bu standartlar İslam aləmi ilə yanaşı, qeyri-müsəlman istehlakçılar üçün də təmiz, sağlam və etik məhsul və xidmətlər təqdim edən bir sistemdir.

Biz "Halal iqtisadiyyat" kitabını simvolik sayıla biləcək bir tarixdə - Bakıda keçirilən bu iki tədbirin arasında tamamladıq: "Azərbaycan Halal Biznes" (AZHAB) Forumu və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası. Azərbaycanın qlobal gündəliyin irəli aparılmasında

oynadığı mühüm rol həm də halal iqtisadiyyatın inkişafı nöqteyi-nəzərindən əhəmiyyətli ola bilər.

Bu kitab bir tərəfdən ölkəmizdə halal iqtisadiyyatın inkişafı və beləliklə də, idxalın əvəzlənməsi, ixracın genişlənməsi, qlobal halal dəyər zəncirlərinə qoşulmaq, biznes etikası və məsuliyyətli istehlak baxımından vacibdirsə, digər tərəfdən də nəzəri əhəmiyyətə malik olmaqla təhsil və tədqiqat sahəsində faydalı ola bilər.

Əziz oxucu! Bu kitabda halal iqtisadiyyatla dünyadakı iqtisadi və maliyyə praktikaları arasında uzlaşmanı təqdim etməklə, fərdi, ictimai, biznes və dövlət səviyyəsində yanaşmaları izah edirik. Kitabın faydalı olacağına ümid edərək, Sizə halal olsun deyirik!

**Vüsal Qasımlı**
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin
icraçı direktoru, iqtisad elmləri doktoru, professor

# Halal iqtisadiyyat

## Ön söz

Dünya miqyasında iqtisadiyyatın yeni inkişaf istiqamətlərindən biri olaraq halal iqtisadiyyat anlayışı getdikcə daha çox əhəmiyyət qazanır. İslamın əsas dəyərlərinə söykənən bu iqtisadiyyat modeli yalnız qida sahəsi ilə məhdudlaşmır, eyni zamanda kosmetika, geyim, turizm, maliyyə və digər mühüm sektorları da əhatə edir.

Halal turizmə gəldikdə ilk öncə qeyd etməliyik ki, Azərbaycan zəngin turizm potensialına malikdir. Eyni zamanda ən əsası odur ki, Azərbaycan bir İslam ölkəsidir və burada müsəlman turistlər üçün qonaqpərvər mühit mövcuddur. Bundan əlavə, İslam dünyasının əsas turizm bazarlarına coğrafi yaxınlıq, halal qida və ibadət üçün şəraitin olması, eləcə də İslam irsimizin mövcudluğu halal turizm bazarında ölkəmizin digər üstün cəhətləri kimi qiymətləndirilə bilər.

Qeyd etməliyik ki, hazırda Azərbaycanın gəlmə turizm bazarında mənbə ölkələri əsasən İslam və müsəlmanların çoxlu sayda yaşadığı ölkələrdir. Belə ki, 2023-cü ildə ilk 10-luğa daxil olan gəlmə turizm ölkələrinin 6-sı İƏT üzvü olan İslam ölkəsi olmuş, həmçinin həmin ildə Azərbaycanın gəlmə turizm bazarında Rusiya və Hindistan yüksək paya malik olmuşdur ki, bu ölkələrdə də çoxlu sayda müsəlman yaşayır.

Getmə turizm bazarında böyük potensiala malik İslam ölkələri (Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt və s.) Azərbaycanın prioritet hədəf turizm bazarları hesab olunur. Bu ölkələrdə Azərbaycanın turizm potensialının təbliği məqsədilə aktiv şəkildə təbliğat tədbirləri həyata keçirilir.

Həmçinin hazırda Azərbaycanın İƏT üzvü olan 22 ölkə ilə sadələşdirilmiş viza rejimi vardır, eləcə də ölkəmizdən 14 İƏT ölkəsinə birbaşa hava əlaqələri mövcuddur. Bütün bu amillər Azərbaycanın müsəlman turistləri cəlb etmək potensialını daha da artırır və ölkəmizin gələcəkdə halal turizm bazarında mövqeyini möhkəmləndirmək üçün əlverişli zəmin yaradır.

Qeyd etməliyəm ki, ölkəmizdə halal turizmin inkişafı məqsədilə müsəlmanların dini ehtiyaclarına uyğun turizm xidmətlərinin və məhsullarının formalaşdırılması, eləcə də hədəf bazarlarda müsəlman turistlərə xitab edən xüsusi təbliğat tədbirlərinin təşkili yaxın gələcəkdə fəaliyyət istiqamətimizdə yer alacadır.

Bu mənada düşünürəm ki, təqdim olunan kitab ayrı-ayrı halal sənaye sahələrini əhatə edən halal iqtisadiyyatın mahiyyəti, eləcə də iqtisadiyyatın ayrı-ayrı sektorları, o cümlədən turizm sektoru üzrə halal ekosistemin formalaşdırılması ilə bağlı faydalı məlumat mənbəyi olacaqdır.

**Fuad Nağıyev**
Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyinin sədri

# GİRİŞ

İnsanın amalı həyatda xoşbəxt yaşamaqdır. İnandığı dəyərlərə görə yaşayan insan həyat tərzini məhz həmin dəyərlərə görə nizamlayaraq özünü xoşbəxt hissedir. Bu onun bütün həyatını ehtiva edir. Həmçinin iqtisadi həyatını tənzimləyərkən əgər insan qazancını halal yollardan təmin edərəkən özünü xoşbəxt hissedirsə, o qazandığını da halal yollara sərf edərək xoşbəxt olmaq arzusunda olur.

İstər inancı və əqidəsi, istərsə də ümumbəşəri, yaxud vicdani dəyərlərə görə olsun əl əməyi və halal qazancın zəruriliyi hər dövrdə insan tərəfindən müqəddəs hesab edilmişdir. Qazancın dini əsaslara müvafiq olması onun halallığına əsaslanır; Başqa sözlə desək, İslam dinində hökmlər nəzəri cəhətdən elmiliyi olan məntiqi əsaslara söykənir. Əks halda, istehsal və istehlak kimi ticarət həyatı, gəlir mənbələri və biznesin aparılması yolları və sair insanın iqtisadi fəaliyyəti İslam həyat tərzində qanuni/halal sayıla bilməz. Bu baxımdan, mövcud dünyəvi qanun və qaydalara uyğun olaraq həyata keçirilən bəzi əməliyyatlar İslam baxımından qanuni və məqbul olmaya bilər. İslam dininin halal anlayışında təkcə hamıya məlum olan mücərrəd hökmlər yox, hətta şübhəli bilinən şeylərdən də çəkinmək ümumi bir halallıq prinsipdir. Çünki şübhəli hallardan belə çəkinməyin vacibliyi barədə müvafiq ayələrdən və hədis mənbələrindən istifadə etmək dini məsuliyyət hesab edilir.

Halal qazanc halal istehlakın əsasını təşkil edir; İstehsal və istehlak da məlumdur ki, bütünüylə iqtisadiyyatın əsasıdır.

## Halal iqtisadiyyat

Qazancın halal olması, buna bağlı olaraq istehlakın, əmanətin və sərmayənin halal olmasına zəmanət verir. Bu da özlüyündə müsəlmançılıqda təqvanın əsasını təşkil edir. Bir baxıma həm qazancda, həm də xərcləmədə orta yolu tutmaq ilahi bir ölçüdür. Çünki din təkcə ritorika üzərində qurulmuş bir inanc deyil. Əksinə, iman, ibadət və əxlaqın bütövlüyünə riayət etmək əməldə həyat tərzi nümayiş etdirməklə mümkündür. Belə ki, təqvalı həyat inandığı dəyərlərin həyat tərzi şəklində təzahür etməsidir. İman ilə əməl bir birinə düz mütənasib olmalıdır. Bir tərəfdən əməli məsələ kimi halal qazancın zəruriliyi və müqəddəsliyi hər bir insanın həyatını təmin etmək üçün öz əl əməyi və halal yollarla əldə etməsi baxımından zərurət (vacib) sayılır. Digər tərəfdən isə, İslamda bu məsələ təkcə əməli məsələ kimi deyil, həm də inanc və əqidəyə bağlı məsələ kimi dəyərləndirilir.

Deməli, müsəlmanın gəlir mənbəyinin halal yoldan olub-olmamasına diqqət yetirməsi həm imanının, həm də əməlinin sağlam olması ilə bağlıdır; Onun bu mühüm məsələyə fikir verməməsi bu mənada imanın zəifliyi ilə əlaqələndirilir. Hədisdə deyilir: “İnsanın yediyi ən halal şey öz qazancından qazandığıdır.” Bəzi alimlərə görə, bu o deməkdir ki, din təkcə möminlərin fərdi ibadətinə diqqət yetirmir, həm də həyatın qalan hissəsini tənzimləyən qaydalar qoyur. Ona görə də qulun dindarlıq düşüncəsində bu prinsiplər nəzərə alınması labüd məsələlərdəndir.

İslam ənənəsinin bir qanadı gəlir əldə etmək üçün daha qənaətkar olmağı tövsiyə edərək zahidlik yoluna üstünlük verdiyi halda, digər qanadı isə müasir dövrün hakim anlayışı

olan daha uyğun bir yol olaraq halal yoldan olmaqla daha böyük olmaq və daha da zənginləşməni əsas meyar kimi götürür.

Klassik mənada asketizmə əsaslanan iqtisadi modelin milli və ya qlobal rifah meydana gətirməsi və bəşəriyyətin həyatını davam etdirməsi mümkün görünmür. Bu gün daha dominant olan anlayışı təmsil edən ikinci yol haqqında da diqqətli olmaq lazımdır. Əslində, əxlaqdan və qanunauyğunluqdan, əqidədən uzaq, sürətli, yüksək və davamlı bir böyümə siyasətinin resursları ehtiyatsızca istehlak etdiyini, həddən artıq istehsalın insanların istəklərini ehtiyac kimi qəbul edib, istehlak yarışına çevirdiyini görürük. Təbii sərvətlərin "talan" edilməsi nəticədə dünyanın tarazlığını pozur və insanları fəlakətlərə, epidemiyalara, aclıqlara və müharibələrə məruz qoyur.

İslam iqtisadiyyatı anlayışında tənbəllik və başqalarından asılı qalmaqla öz ləyaqətinə xələl gətirmək nə qədər qeyri əxlaqi hesab edilirsə, mənfəət əldə etmək üçün həddindən artıq tamah, təkəbbür, şöhrətpərəstlik naminə tələsik və haram yollara müraciət etmək də rədd edilir. Qurani-Kərimdə bu haqda deyilir: "Onlar (mallarını) xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bu ikisinin arasında orta bir yol tutarlar." (Furqan 25/67.) Halallıq bir şeyin təkcə necə əldə edildiyinə bağlı deyil. Əxlaqi bir dəyər olaraq qazancın hansı üsulla xərclənməsini də əhatə edən geniş məfhumdur.

İnsan həyatı məhdud olduğu kimi, ehtiyacları da məhduddur. Hədsiz istək və ehtirasın isə sərhəddi yoxdur. İnsanın ehtiyac sərhəddini aşaraq çox parlaq həyata,

göstərişə yol verməsi israfı doğurur. Hər nemətin lazımi yerdə lazımi qədər sərf edilməsi orta yolu tutmaqdır. Xeyir işlərin şüuru ilə bacardığı qədər gəlir (kəsb) əldə etməklə insan özünün və ailəsinin dolanışığını təmin etməli, zəhməti və sərmayəsi ilə başqa insanların da rifahı və səadəti üçün çalışmalıdır. Qazancın qalan hissəsini isə gələcəkdə investisiya və istehsal fəaliyyətlərinə çevirərək iqtisadi qabiliyyətini bəşəriyyətin gələcəyi üçün sərf etməlidir. Zəhməti müqabilində aldığı gəlirə şükür etməli, bununla kifayətlənməli və imkanları əhatə dairəsində başqaları ilə bölüşməlidir. Unutmayaq ki, bir həqiqətdir ki, insan ruzisini almadan bu dünyadan köçüb getməz. Ona görə də tələsik davranmağa, qeyri-qanuni yollara əl atmağa ehtiyac yoxdur. Bunu unutmamaq lazımdır.

Qeydək ki, insanın istehlak tərzi onun qazanma tərzindən asılıdır. Buna uyğun olaraq halal qazanc cari və gələcək xərcləri real ehtiyaclar əsasında maliyyələşdirərkən qeyri-halal yolla əldə edilən qazanc şəxsi istəklər əsasında zərurət olmayan xərcləri maliyyələşdirir. İnsanlar dünya həyatını davam etdirmək üçün nemətlərdən ehtiyacına görə istifadə edərkən istehlak həddini aşmamalıdır. Xərcləyərkən də, israfa yol vermək, faydasız yerlərə xərcləmək bədxərclik etmək hər halukarda adətlərə zidd və həm də imana yaraşmaz hesab edilmişdir. Belə bir halda sərf edilən vəsaitin azı da, çoxu da israfdır. Çünki mal-mülk və var-dövlət Allahın insana bəxş etdiyi əmanət sayılır. Nemətin haqqına riayət etmək məhz həmin neməti israf etməmək lazımi ölçülər əsasında xərcləmək lazımdır.

## Halal iqtisadiyyat

Göstəriş üçün çəkilən bütün xərclər cəmiyyətin çökməsinə və ya geri qalmasına səbəb olan əsas amillərdəndir. Çünki istehsaldan çox istehlak etmək sərvətlərin tükənməsinə, təbəqələşmənin kəskin surətdə artmasına və sosial və ictimai tarazlığın pozulmasına gətirib çıxarır ki, buna görə israf qadağan edilmiş, həm də bu davranış və düşüncə içərisində olanlar  qınanmışıdr. Ehtiyacların təsnifatı ümumbəşəri dəyər olaraq müasir iqtisadiyyatda olduğu kimi ənənəvi İslam düşüncəsində oxşardır. Beləki nsan həyatındakı ehtiyaclar zəruri (əsas) və qeyri-zəruri (digər) ehtiyaclar olmaqla iki qrupa bölünür. Təbiidir ki, bu zərurətlərin məzmunu zaman və məkandan asılı olaraq dəyişə bilər. Buna müvafiq olaraq, iqtisadi, sosial və texnoloji şərtlərdəki dəyişikliklərdən asılı olaraq şəhər iqtisadiyyatı və sənayeləşmə artdıqca əsas ehtiyacların da sayı və keyfiyyəti gəlir səviyyəsinə görə artır. İstər zaman və istərsə də məkandan asılı olmayaraq harda olarsa olsun halal qazanc axtarmağın hər bir möminə vacib olduğu qeyd edilir. Hədisdə deyilir: Kim əl əməyi və alın təri ilə qazandığı halal malını yeyərək ailə yuvasında gecələsə, Allah ondan razı qalaraq gecəni keçirər, bağışlanmış olaraq səhərə qovuşar.” Necə ki, Qurani-Kərimdə əl əməyi qazancın yeganə yolu olduğu və onun mükafatının hədər getməyəcəyi belə qeyd edilir: “İnsana ancaq öz zəhməti (sə’yi, çalışması, əməli) qalar! Şübhəsiz ki, (qiyamət günü) onun zəhməti (sə’yi, əməli) görünəcəkdir! Sonra da ona (zəhmətinin, əməlinin) tam əvəzi veriləcəkdir! ” (Nəcm, 39-41). Həmçinin hədislərdə deyilir: “İnsanın yediyi ən halal şey, qazandığından yediyidir. Heç bir

insan öz əl əməyini yeməkdən xeyirli əsla bir loxma yeməmişdir.”

İqtisadi həyatda halallıq həm də insanların birbirinin hüquqlarına riayət etməklə mümkündür. “Özünə rəva bilmədiyini başqasına rəva görmə” konsepsiyası əxlaqi bir dəyərdir. Bu dəyərə əsasən hər kəsin özünə görə hüquqi təsərrüfləri mövcuddur və məhz həmin hüquqlardan istifadə edərkən insanın hərəkət sahəsi heç də hüdudsuz deyil. Əksinə, hər bir insanın hüquqi sərhədləri digərlərinin hüquqlarının başlandığı yerə qədərdir. Buna görə istər hüquqi sərhədləri baxımından insanın digər insanların huquqlarına hörmətamiz yanaşması vacib bir amildir. İstərsə də əxlaqi konsepsiya olaraq yuxarıda qeyd edildiyi kimi başqalarının hüquqlarına riayət baxımından empatiya quraraq insanın digər insanların hüquqlarına hörmətamiz yanaşması mənəvi bir dəyər olaraq vacib bir əməldir. Hər iki yanaşma insanlar arasında halallıq meydana gətirən ünsiyyət vasitəsidir.

Halallıq insan həyatında etik dəyər ierarxiyasını təşkil edir ki, bunlardan biri də “qul haqqı” dini-əxlaqi dəyəridir. Bunun mahiyyəti ondan ibarətdir ki, dini düşüncədə insanın xətaları iki yerə bölünür. Allaha qarşı işlənən xətalar Allah və qul arasındaki ünsiyyəti ifadə edən günahlar adlanır. İnsanın digər insanlarla olan münasibətləri daha mürəkkəb mahiyyət ifadə edir. İnsanlara qarşı işlənən xətalar günah olmaqla yanaşı həm də qul haqqına bais olmaq baxımından iki tərəfli, yəni həm insanlara qarşı cavabdeh olacağı günah, həm də Allaha hesab verməsi lazım olan məsuliyyət konteksti meydana gətirir. Bu baxımdan Allaha qarşı işlənən günahlar

bağışlandığı halda, insanlara qarşı işlənən xətalar isə qul haqqına təcavüz kimi qiymətləndirilir. Həmçinin günah kateqoriyası olaraq Allaha qarşı işlənən günahlar qul və Allah arasında tövbə ilə bağışlandığı halda, qul haqqına təcavüz halında isə həm həmin günahın bir daha işlənməyəcəyinə Allaha söz vermə -tövbə- ilə birgə, günahkar dünyada ikən hüququnu tapdaladığını, haqqına təcavüz etdiyi və ya ümimilikdə qul haqqına girdiyi şəxslərdən halallıq almasının da vacib olduğu tövbəsinin qəbul olması üçün şərtdir. Əgər həyatda ikən halallıq almazsa onun hesabının axirətdə görülməsi labüddür ki, axirət hesabının dünyadakindən daha ağır və çətin olacağı məlum olan bir mövzudur.

Qeyd etmək lazımdır ki, İslam dininin bəşəriyyətə təqdim etdiyi dəyərlərdən biri də hər bir işdə həm dünya, həm də axirət hesabını nəzərə alaraq yaşamaqdır. İnsan ömrü dünya həyatı üçün verilmiş bir möhlətdir, müvəqqətidir və əbədi olan axirət həyatı üçün hazırlıq mərhələsidir. Buna görə də əsl həyat axirət həyatıdır.  Qurani-Kərimdə deyilir: “Allahın sənə verdiyindən özünə axirət qazan (malını Allah yolunda sərf et). Dünyadakı nəsibini də unutma. Allah sənə (sərvət verməklə) yaxşılıq etdiyi kimi, sən də (varından yoxsullara, qohum-əqrəbaya xərcləməklə) yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah fitnə-fəsad törədənləri sevməz!” (“əl-Qəsəs”, 28/77.)

Dini-əxlaqi norm kimi mülkiyyət haqqı qorunmuşdur. İnsanların sahib olduqları mallardan istifadə etmək ancaq onların razılığı və hüquqi əsaslara uyğun davranmaqla halallıq ölçüləri əsasında gerçəkləşə bilər. Əks təqdirdə hər

hansı bir qeyri əxlaqi davranış, yaxud hüquqa zidd hər hansı bir hərəkət, mülkiyyətə təcavüz kimi cinayət hesab edilməklə yanaşı həm dünya və həm də axirət üçün çox pis aqibətə düçar olmaqdır. Müqəddəs Qurani-Kərimdə bu haqda deyilir: "Ey iman edənlər! Qarşılıqlı razılıqla edilən alver müstəsna olmaqla, bir-birinizin mallarını batil yollarla yeməyin" (Bəqərə, 2/188.) Bu ayədə batil yoldan məqsəd aldatmaq, oğurluq, xəyanət, qarət, faiz, qumar və s. kimi şəriətin icazə vermədiyi yollardır.

Bu kimi qeyri əxlaqi davranışlar qul haqqına təcavüz sayılır ki, müsəlman əxlaqında belə işlərdən uzaq durmaq və hər işdə doğruluğa çalışmaq halal davranış qaydalarından hesab edilir. Qurani-Kərimdə bu barədə belə deyilir: "Vay halına çəkidə və ölçudə aldadanların! O kəslər özləri insanlardan (bir şey) aldıqları zaman onu tam ölçüb alar, onlar üçün ölçdükdə və ya aldıqda isə (onu) əskildərlər. Məgər onlar (öləndən sonra) diriləcəklərini düşünmürlərmi?! Özü də dəhşətli bir gündə! O gün bütün insanlar (haqq-hesab üçün) aləmlərin Rəbbinin (Allahın) hüzurunda duracaqlar!." (Mütəffifin, 1-5.) Hz. Peyğəmbər (s.) də bir gün bazarda dolaşarkən malının qüsurlu hissəsini gizlədən bir nəfərə: "Bu qüsuru üzə qoy ki, insanlar görsün. Bizi aldadan bizdən deyildir."; "Mal satarkən, mal alarkən və borcunu istəyərkən mülayim, nəzakətli davranan kəslərə Allah mərhəmət etsin" (Müslüm, İman, 164) deyə buyurmuşdur.

Məhz bu baxımdan insan istər ticari, istər ictimai, istərsə də sosial həyatında insanların hüquqlarına halallıq prinsipindən çıxış edərək həmişə maksimum hörmətlə

yanaşmalıdır. Bir hədisdə deyilir: "Həqiqi müsəlman əlindən və dilindən başqalarının zərər görmədiyi kəsdir." Başqa bir hədisdə isə: "Ey insanlar! Kimin üzərində keçmiş bir haqq varsa, onu dərhal ödəsin! Dünyada "rüsvay olaram" -deməsin, yaxşı bilin ki, dünya rüsvayçılığı axirət rüsvaylığından çox yüngüldür".

Halallıq bir məfkürə kimi həm də cəmiyyət həyatının ahəngini nizamlyır. Bu nizamı ifsad edən şeylər çoxdur. Onlardan biri də rüşvət almaqdır ki, qeyri etik davranış kimi rüşvət ictimai həyatı alt-üst edən və bu nizamı sarsıdan əxlaqi pozğunluq hesab edilir. Çünki onun zərəri, fərdə təsir etdiyi qədər cəmiyyətə də şamil olur. Rüşvətin miqdarı az belə olsa, o adi görülməməlidir. Əxlaqı pozmaqla yanaşı vicdanları da ləkələyən rüşvət, aradan qaldırılmadığı zaman rüşvətxorluq kimi təmiz alınlarda qara ləkə meydana gətirən pis bir əmələ çevrilir. Daha sonra isə bu mənfi davranış yayıldığı mühitlərdə vərdiş halını alaraq alış-veriş edirmiş kimi daha da acınacaqlı hal olan tamah meydana gətirir. O, bir od alovu kimi, mənəvi tərbiyəni və şəxsi keyfiyyətləri fəsada gətirib çıxararaq vicdani duyğuları məhv edir. İnsani dəyərləri, fəziləti və milli dəyərləri puça çıxarır. Məhz bütün bunların qarşısını almaq məqsədi ilə ictimai nizamı bütövlükdə qoruyan əxlaqi prinsip olaraq hədisdə deyilir ki: "Rüşvət verən də, rüşvət alan da cəhənnəmdədir." (Əbu Davud, Əqdiyə, 4.)

Mülkiyətin təmini və ondan faydalı istifadə olunmasında əxlaqi dəyər kimi halallıq, hüquqi və həm də dini xarakter daşıyan toplumsal bir dəyərdir. Uğurlu iqtisadi fəaliyyətin aparılması və dünya nemətlərinin əldə edilməsi üçün bu

anlayış dərin məna ifadə edir. Ona görə də düzgün iqtisadi fəaliyyətin aparılmasının əsası məhz halallıq konseptini hərtərəfli nümayiş etdirməklə mümkündür. İqtisadi fikir tarixi kimi İslam iqtisadiyyatının son illərdə sürətlə artan və müasir çağrışlara praktik cavab verən qaynağa çevrilməsi son dövr elmi dövriyyələrdə tez-tez rastımıza çıxan mövzulardandır. Bu sahədə əsas qaynaqlar, prinsiplər və dəyərlər haqqında kifayət qədər biliyə malik olmadan sadə məlumat mərkəzli mülahizələrlə uğurlu nəticələr əldə edilə bilməz.

Halal iqtisadiyyat məfhumu bir ekonometrik metodlar möhtəvasını əhatə edir. Dərin tədqiqatlar və araştırmalarla onun təfərrüatını öyrənmək müasir dövrün iqtisadi çağırışları baxımından vacib məsələdir. Bu baxımdan İslam iqtisadiyyatını öyrənənlərin əsas qaynaqları dərk etmələri və bu məsələlərdə səlahiyyətli şəxslərlə əməkdaşlıq etmələri labüddür. Əlinizdəki bu əsər məhz həmin meyarları elmi-nəzəri biliklər əsasında təqdim edir.

**Aqil Şirinov**
Azərbaycan İlahiyyat İnstitutunun rektoru,
İlahiyyat üzrə fəlsəfə doktoru, dosent